

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 219 (23.130)

*16 noyabr 2018-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsu qəbul edib.

Prezident İlham Əliyev Endrü Parsonsun Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının Bakıda keçirilən iclasında iştirakının önəmini qeyd edib və ölkəmizin bu təşkilatla da yaxşı əməkdaşlıq həyata keçirdiyini deyib.

Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsons Prezident İlham Əliyevin idmana, o cümlədən paralimpiyaçılara böyük diqqət və qayğı göstərdiyini qeyd edib və bu münasibətlə beynəlxalq paralimpiya hərəkatı adından dövlətimizin başçısına minnətdarlığını bildirib.

* * *

Prezident İlham Əliyev noyabrın 15-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin ətrafındakı ərazidə yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən tədbirlərin icra vəziyyəti ilə tanış olub.



## Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır



Şərur rayonunun Yuxarı Daşarx kəndində keçirilən tədbirdə Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev "Azərbaycanın təkcə bu günü deyil, həm də gələcək siyasi taleyi Yeni Azərbaycan Partiyası ilə bağlıdır" mövzusunda məruzə edib.

Qeyd olunub ki, respublikamızda ötən əsrin səksəninci illərinin sonlarından başlayan və doxsanıncı illərin əvvəllərində daha da gərginləşən ictimai-siyasi vəziyyət Azərbaycanda yeni siyasi gücə böyük ehtiyac yaratmışdı. Bu gücün istinad nöqtəsi isə yalnız ümummilli lider Heydər Əliyev ola bilərdi. Həmin dövrün ən mühüm hadisələrindən biri də görkəmli dövlət xadiminin rəhbərliyi ilə siyasi partiya yaradılması təklifi idi. Bu məqsədlə bir qrup ziyalı 1992-ci il oktyabrın 16-da Naxçıvanda yaşayan və işləyən, lakin ürəyi daim Azərbaycanla birgə döyünən ulu öndərə müraciət ünvanladı. Ziyalılar həmin müraciətdə ölkəni mövcud siyasi böhrandan xilas etmək üçün ulu öndər Heydər Əliyevdən yeni bir partiya yaradılmasına razılıq verməsini və ona başçılıq etməyi xahiş edirdilər.

Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri vurğulayıb ki, həmin dövrdə partiyanın yaradılması obyektiv zərurətdən irəli gəlirdi. Dahi şəxsiyyətin Yeni Azərbaycan Partiyasını yaratması və ona rəhbərlik etməyə razılıq verməsi xalqımızın gələcəyə inam hissini yenidən gücləndirdi. Beləliklə, 1992-ci il noyabr ayının 21-də – müasir siyasi tariximizin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında, bu böyük şəxsiyyətin ətrafında birləşən Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Partiyanın yaranması ilə müstəqil Azərbaycanın siyasi həyatında yeni bir mərhələ başlandı.

Qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının Azərbaycan xalqı, Azərbaycan dövləti qarşısındakı xidmətləri misilsizdir. Bu partiya bu gün də Heydər Əliyev ideyalarını sədaqətlə yaşadır. 2003-cü ildən bəri lider partiyaya cənab İlham Əliyev rəhbərlik edir. Həmin ildən etibarən əsasını ulu öndər Heydər Əliyevin qoyduğu milli inkişaf strategiyası uğurla davam etdirilir.

Tədbirdə konkret faktlarla nəzərə çatdırılıb ki, Azərbaycanın bütün bölgələrini əhatə edən iqtisadi və sosial islahatlar Naxçıvan Muxtar Respublikasında da inkişafın dinamik artımına səbəb olub. Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə 1995-ci ildən başlanan böyük quruculuq işləri onun xalqa, dövlətə və Heydər Əliyev ideyalarına sədaqətinin bariz nümunəsidir. Ümumiyyətlə, Yeni Azərbaycan Partiyasının yarandığı dövrdən ötən müddətdə ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün sahələrinə nəzər saldıqda görürük ki, Yeni Azərbaycan Partiyası təkcə bu günün deyil, həm də gələcəyin partiyasıdır.

Tədbirdə rayon təşkilatı sədrinin müavini İbrahim Hənifəzadə, Yuxarı Daşarx kənd tam orta məktəbinin direktoru Elvin Cabbarov, partiya fəalı Şirzad Əkbərov və başqaları çıxış edərək bildiriblər ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi, istiqlalımızın dönməzliyinin təmin olunması, ölkədə həyata keçirilən geniş və çoxşaxəli islahatlar məhz Yeni Azərbaycan Partiyasının yaradıcısı, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin adı ilə bağlıdır. Həyata keçirilən siyasət iqtidar partiyası kimi onun nüfuzunu gündən-günə daha da artırır.

Sonda partiya sıralarına qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqələri, partiya fəallarına hədiyyələr təqdim olunub.

**Elman MƏMMƏDOV**

## Dövlət orqanları ixtisaslı kadrlarla təmin olunur

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən imtahanların mövcud qanunvericiliyin tələblərinə uyğun təşkil edilməsi, namizədlərin biliklərinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarətin gücləndirilməsi istiqamətində tədbirlər oktyabr ayında da davam etdirilmiş, komissiyanın yeni proqram təminatı istifadəyə verilmişdir.

Komissiyanın test mərkəzində təkrar attestasiyaya cəlb olunmuş dövlət orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşlarının test imtahanı mərhələsi keçirilmişdir. Attestasiyanın test imtahanı mərhələsində 6 nəfər iştirak etmiş, keçid balını toplayan 5 nəfər esse mərhələsində uğur qazanmışdır. Komissiya tərəfindən 29-31 oktyabr tarixlərdə dövlət ümumi təhsil müəssisələrində psixoloq, laborant, kitabxana müdiri, kitabxanaçı, tərbiyəçi və uşaq birliyi təşkilatının rəhbəri vəzifələrinə işə qəbul üçün elan edilmiş müsabiqənin test imtahanları keçirilmişdir. Müsabiqəyə çıxarılmış 97 vakant vəzifənin tutulması üçün 68 nəfər sənəd təqdim etmişdir. Test imtahanlarında iştirak edən 67 namizəddən 56-sı keçid balını toplamış və onların sənədləri vakant vəzifələrə təyin olunmaq üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə göndərilmişdir. Həmçinin komissiya, müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün 24 oktyabr 2018-ci il tarixdə növbəti müsabiqə elan etmişdir. Bu dövrdə ehtiyat kadrlar saxlanılmış, ehtiyat kadrlar siyahısında olan 1 namizəd vakant vəzifəyə təyin olunmuşdur.

Komissiyanın Əsasnaməsinə uyğun olaraq dövlət ümumi təhsil müəssisələrinə işə qəbul üçün 44 namizədin iştirakı ilə hazırlıq kursları təşkil edilmişdir. Həmçinin komissiya tərəfindən dövlət qulluğuna qəbul olmaq istəyən şəxslər üçün keçirilmiş sınaq imtahanlarında 51 nəfər iştirak etmişdir. Bu dövrdə maarifləndirici tədbirlərin keçirilməsi də davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli bölmələri üçün "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda, habelə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı ilə birlikdə dövlət orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşları üçün "Dövlət orqanlarının mətbuat xidmətləri tərəfindən ictimaiyyətlə əlaqələrin təşkili" mövzusunda seminarlar keçirilmişdir.

"Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə Naxçıvan Dövlət Universitetində açıq dərs təşkil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## "Naxçıvan Məhsulları" MMC fəaliyyətini genişləndirir






Müasir dövrdə muxtar respublikamızda iqtisadiyyatın inkişaf istiqamətləri, əsasən, yerli resurslardan istifadə olunması ilə sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə yönəlib. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər muxtar respublikanın istehsal müəssisələrində müxtəlif növdə və çeşiddə məhsulların istehsalı üçün əlverişli şərait yaradıb. İndi artıq yerli və regional bazarlarda mənşəyi Naxçıvan olan hər bir məhsul istehlakçılar tərəfindən həvəslə alınır. "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti də fəaliyyətini bu istiqamətdə genişləndirərək muxtar respublikamıza xas olan brend məhsullarla daxili bazarı təmin etmək üçün ixracyönümlü və rəqabətqabiliyyətli məhsullar istehsal etmək üzrə ixtisaslaşıb.

2014-cü ildə təsis edilmiş "Naxçıvan Məhsulları" MMC hazırda meyvə qurudulması, cem, kompot, pendir, makaron istehsalı, bal və ailə təsərrüfatı məhsullarının qablaşdırılması üzrə fəaliyyət göstərir. Bundan əlavə, cəmiyyət 2016-cı ildən başlayaraq dövlət müəssisə və təşkilatlarının ərzaq məhsulları ilə mərkəzləşdirilmiş qaydada təmin olunmasını da həyata keçirir. Bu məqsədlə 21 istehsal və topdansatış müəssisəsi və 230-dan çox ailə təsərrüfatı ilə də əməkdaşlıq edilir. Ümumilikdə, müəssisə tərəfindən dövlət büdcəsi vəsaitləri hesabına maliyyələşən 46 müəssisə və təşkilatın ərzaq məhsulları ilə təmin olunması həyata keçirilib.

"Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb. Burada quraşdırılmış avadanlıqlar hesabına müasir standartlara uyğun məhsullar istehsal olunur. Xüsusilə qış tədarükü məqsədilə meyvə qurudulması və pendir istehsalı artan tələbatı ödəmək baxımından əhəmiyyətlidir.

Müəssisədə olarkən burada yaradılmış səliqə-sahman və yüksək gigiyenik şərait diqqəti cəlb etdi. Şəhərimizin mərkəzində müəssisənin istehsal etdiyi məhsulların satışı üzrə ixtisaslaşmış mağazanın yaradılması da yerli məhsullarımızın daha geniş miqyasda tanıdılması və satış həcminin artırılması baxımından mühüm əhəmiyyətli tədbirlərdəndir. Şəhərimizin mərkəzində, Heydər Əliyev prospekti 21 ünvanında yerləşən "Naxçıvan məhsulları" satış mağazası fəaliyyətə başladığı qısa müddətdə xeyli sayda alıcıya xidmət edib. Mağazaya baş çəkdiyimizdə bildirdilər ki, burada hazırda mal çeşidinin sayı 600-dən artıqdır. Satılan meyvə quruları, pendir, mürəbbə, vafli, biskvitlər, eləcə də kompot və meyvə şirələri həvəslə alınır. Qiymətinin digər analoqlara nisbətən daha münasib və keyfiyyətinin də yüksək olması pambıq bezlərə və "Bəsləmə" toyuqlarına olan tələbatı da artırıb. Malların səliqə-sahmanla təklif olunduğu mağazada alıcıların xidmətdən razı qalması üçün hər cür şərait yaradılıb. Üzərində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqosu əks olunmuş hədiyyəlik paketlər turistlərin də diqqətini cəlb edir. Reklamın effektliyini artırmaq üçün sosial şəbəkələrdə də "Naxçıvan məhsulları" səhifəsi yaradılıb.

✍ **Əli CABBAROV**



# İqtisadiyyat



## Alternativ və bərpaolunan enerji mənbələrindən istifadə Naxçıvanı cəlbedici məkana çevirir

*Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişaf etmiş sahələrindən biri də energetikadır. Keçən əsrin sonlarında muxtar respublikanın blokadaya salınması bu vacib sektorun inkişafına böyük əngəllər yaratsa da, ötən dövr ərzində muxtar respublikanın enerji təhlükəsizliyi ilə bağlı atılan mühüm addımlar hazırda bu sahənin hərtərəfli inkişafına zəmin yaratmış, nəticədə, muxtar respublika enerji idxal edən regiondan enerji ixrac edən regiona çevrilmişdir. Muxtar respublika energetikasında mövcud təbii potensialdan lazımınca istifadə son bir neçə ildə bərpaolunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalına imkan vermişdir ki, qısa müddətdə bu sahədə mühüm nəticələr əldə olunmuşdur.*

Hamımıza məlumdur ki, Yer kürəsində iki cür enerji mənbəyi mövcuddur: bərpaolunan və bərpa olunmayan. Bərpaolunan enerji mənbələri fasiləsiz fəaliyyət göstərir. Bunlar Günəş, külək enerjisi, hidroenerji və digərləridir. Bərpa olunmayan mənbələr isə (qazıntı-yanacaq növləri, nüvə və nüvə-istilik enerjisi) ətraf mühitin əlavə olaraq istiləşməsinə, ekologiyanın çirklənməsinə, zərərli tullantıların artmasına və digər neqativ nəticələrin yaranmasına səbəb olur. Buna görədir ki, son dövrlərdə dünya ölkələri sürətlə bərpaolunan enerji mənbələrinə keçidi prioritet məsələyə çeviriblər. Hazırda dünyanın inkişaf etmiş ölkələrində ekoloji cəhətdən təmiz, yəni bərpaolunan enerji mənbələrindən geniş istifadə olunur. Bu sahədə ABŞ, Kanada, Almaniya, Finlandiya, Norveç, Danimarka, İspaniya, Yaponiya və Çin daha qabaqcıl mövqe tuturlar.

Qeyd etmək lazımdır ki, müstəqilliyimizin bərpasından sonrakı dövrdə enerji istehsalı muxtar respublikamızda, əsasən, hidroenergetika mənbələri hesabına formalaşdırılıb. Su ehtiyatları çox az olmasına baxmayaraq, lakin muxtar respublikanın mövcud hidroenerji potensialından səmərəli istifadə olunmaqla ekoloji təmiz və iqtisadi cəhətdən daha səmərəli olan su elektrik stansiyaları tikilib. 2006-cı ilin dekabrında Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ilin oktyabrında Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 2014-cü ildə isə Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları istismara verilib. Hidroenergetika mənbələri üzrə həyata keçirilən tədbirlər bununla yekunlaşmır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il yanvar ayının 11-də muxtar respublikamıza səfəri çərçivəsində Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edərkən muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək deyib: ***"Ordubad rayonunda elektrik stansiyasının təməli qoyuldu. Bu, çox böyük layihədir, böyük stansiya olacaq, 36 meqavat gücündə su elektrik stansiyası tikiləcək. Bu, Naxçıvan Muxtar Respublikasının iqtisadi və enerji potensialını böyük dərəcədə gücləndirəcək".***



Qeyd edək ki, bu stansiyada istehsal olunacaq elektrik enerjisinin mövcud elektrik şəbəkəsinə ötürülməsi üçün 2 ədəd hər birinin gücü 50 meqavolt-amper olan 115/10,5 kilovoltluq transformator yarımstansiyası quraşdırılacaq və Ordubad Su Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin Naxçıvan Modul Elektrik Stansiyası vasitəsilə şəbəkələrə ötürülməsi üçün uzunluğu 75 kilometr olan 110 kilovoltluq elektrik verilişi xətti çəkiləcək. Bundan əlavə, gücü 14 meqavat olan Tivi Su Elektrik Stansiyasının və 3,5 meqavat olan Qazançı Su Elektrik Stansiyasının tikintisinin texniki-iqtisadi əsaslandırılması da hazırlanır.

Son illərdə muxtar respublikanın enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində atılan ən böyük addımlardan biri də Naxçıvan Günəş Elektrik Stansiyasının yaradılmasıdır. 2015-ci ildə 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və 2017-ci ildə stansiyanın gücünün daha 2 meqavat artırılması Naxçıvanın etibarlı enerji təminatına səbəb olub. Eyni zamanda Culfa rayonunda külək elektrik stansiyasının tikintisi ilə bağlı hazırlıqlar aparılır.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il muxtar respublikada 431 milyon 691 min kilovat-saat elektrik enerjisi istehsal olunub ki, bu da 2006-cı ildəki göstəricidən 93,2 faiz çoxdur. 2017-ci ildə muxtar respublikada elektrik enerjisinin 231 milyon 432 min kilovat-saatı və ya 53,6 faizi istilik elektrik stansiyalarında, 168 milyon 946 min kilovat-saatı və ya 39,1 faizi su elektrik stansiyalarında, 31 milyon 313 min kilovat-saatı və ya 7,3 faizi isə Günəş Elektrik Stansiyasında istehsal edilib. Ölkə üzrə Günəş Elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 78,3 faizi muxtar respublikanın payına düşüb.

Muxtar respublikada enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev deyib: ***"Elektrik enerjisi ilə problem yoxdur. Hesab edirəm, gün gələcək ki, Naxçıvan bütün enerji tələbatını bərpaolunan enerji növləri hesabına təmin edəcək".***

Alternativ enerji mənbələrindən artıq yuxarıda da qeyd etdiyimiz kimi, dünyanın bir çox inkişaf etmiş ölkələrində istifadə olunur. Məsələn, Almaniyada işlədilən enerjinin 17 faizə qədəri külək və Günəşdən alınır. Naxçıvan Muxtar Respublikasında isə elektrik enerjisinə olan tələbatın 70 faizə yaxını alternativ və bərpaolunan enerji mənbələri hesabına ödənilir ki, bu da çox nadir göstərici hesab edilir. Hazırda dünyada alternativ və bərpaolunan enerji mənbələri hesabına işləyən elektrik stansiyalarında istehsal olunan enerji miqdarının ümumi istehsalın 50 faizdən çoxunu təşkil edən cəmi bir neçə ölkə mövcuddur.

Ümumiyyətlə, bu gün Naxçıvanın enerji təhlükəsizliyi sahəsində qazandığı uğurlar bu qədim Azərbaycan diyarı ilə yaxından tanış olan hər kəs, o cümlədən xarici ölkələrin diplomatik nümayəndələri tərəfindən maraqla qarşılanır. Məsələn, bu yaxınlarda Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasın, Azərbaycanda akkreditə olunmuş Avropa İttifaqı ölkələrinin diplomatik missiyalarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə "Avropa günləri"nə həsr olunmuş mətbuat konfransında üzərində ən çox dayanılan mövzulardan biri də Naxçıvanın alternativ və bərpaolunan enerji sahəsində qazandığı uğurlar idi. Bu sahədə muxtar respublikamız ilə ölkəsinin əməkdaşlıq etmək istəyini dilə gətirən diplomatlar da az deyildi. Qeyd edək ki, Naxçıvan artıq bir neçə ildir, müvafiq sahə ilə bağlı bəzi ölkələrlə əməkdaşlıq edir. Danimarkanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Svend Ollinqin dedikləri isə daha maraqlı idi: "XXI əsrin ən güclü ölkəsi alternativ və bərpaolunan enerji mənbələrindən səmərəli istifadə edən ölkə olacaq".

Həqiqətən, müasir dövrdə enerji sektoru bütün sahələrin inkişafı üçün əvəzolunmaz mənbədir. Texnoloji inqilablar əsri olan XXI əsrdə isə bu sektorun ölkələr üçün əhəmiyyəti daha da aktuallaşacaq. Odur ki, muxtar respublikanın alternativ və bərpaolunan enerji mənbələrindən istifadədə əldə etdiyi və qazanacağı uğurlar yaxın gələcəkdə Naxçıvanın investisiya cazibədarlığını daha da artıracaq.

**Səbuhi HƏSƏNOV**

## Yol təsərrüfatının səmərəli fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb

*Yeni Asfalt-Beton Zavod Kompleksinin istifadəyə verilməsi bu imkanları daha da artırıb*



*Hamar və təhlükəsiz yollar təkcə ondan istifadə edən insanların rahatlığı haqda deyil, həm də regionun ümumi inkişaf səviyyəsi barədə əyani təsəvvür yaradan ilk göstəricilərdəndir. Elə Naxçıvana səyahət edən qonaqlar da muxtar respublikanın giriş qapılarından tutmuş ucqar dağ kəndlərinədək çəkilmiş komfortlu yollarımızı görüb heyranlıqlarını gizlətmirlər. Digər sahələr kimi, yol təsərrüfatının da tamamən müasir texnologiyaya əsaslanmaqla yenidən qurulması muxtar respublikamızda bu vacib sahədə yüksək nəticələrə nail olunmasına şərait yaradıb.*

Əslində, yol təsərrüfatı kifayət qədər mürəkkəb sahədir. Xüsusən Naxçıvan kimi relyef quruluşunun mürəkkəb, hava-iqlim şəraitinin dəyişkən olduğu yerdə və əhalisinin mədəni tələbatlarının artdığı bir dövrdə yollarımızın da bunlara uyğun olaraq keyfiyyətli çəkilməsi və daha etibarlı şəkildə istismar olunması burada görülən işlərə qarşı tələbləri ciddi şəkildə artırır. Bu mənada, son illərdə Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi və onun tabeliyində olan yol istismar idarələrinin maddi-texniki bazası da xeyli möhkəmləndirilməklə muxtar respublikada yol tikintisinin səmərəli təşkilinə şərait yaradılıb, müasir mühəndis-texniki tələblərə cavab verən avtomobil yolları inşa olunub. Muxtar respublikada əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması nəticəsində, istifadə olunan avtomobillərin də sayı çoxalmaqda, yeni salınmış yollarda hərəkət intensivliyi də artmaqdadır. Odur ki, Naxçıvanda yeni avtomobil yollarının çəkilməsi, mövcud olanların müasir standartlara uyğun yenidən qurulması sahəsində işlər həmişə aktuallıq kəsb edir. Ötən aylarda istifadəyə verilmiş Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin yeni Asfalt-Beton Zavod Kompleksinin kollektivi də qarşıya qoyulmuş bu vəzifələri yerinə yetirmək üçün onlara göstərilən dövlət qayğısından səmərəli istifadə etməyə çalışır.

Son illər Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər yol tikintisinin səmərəli təşkilinə şərait yaradıb. Nəticədə, müasir mühəndis-texniki tələblərə cavab verən avtomobil yolları inşa olunub. Bu sahədə mühüm rolu olan yeni Asfalt-Beton Zavod Kompleksi isə məhsuldarlığına və istehsal etdiyi məhsulun keyfiyyətinə görə müasir standartlara cavab verir. Belə ki, üç hektar sahəni əhatə edən zavodda Almaniya istehsalı olan avadanlıqlar quraşdırılıb. Zavod asfalt istehsalı sahəsindən və qum-çınqıl karxanasından ibarətdir. Burada istehsal olunan məhsullar öz keyfiyyəti ilə seçilir. Zavodda enerji sərfiyyatı istehsal edilən asfaltın miqdarına uyğun tənzimlənir və əlavə enerji itkisinə yol verilmir. Yeni Asfalt-Beton Zavodu saatda 240 ton asfalt-beton istehsal edir ki, bu da əvvəlki zavodun istehsal gücündən 4 dəfə çoxdur. Burada quraşdırılmış Türkiyə mənşəli daşqırıcı qurğu vasitəsilə ölçüsü 25 millimetrədək olan 5 növdə 210-230 ton fraksiya istehsal etmək mümkündür. Daşqırıcının istehsal gücü saatda 100-110 tondur. Zavodda tutumu 300 ton olan bitum ehtiyatı anbarı yaradılıb, hər birinin tutumu 50 ton olan 6 bitum çəni quraşdırılıb. Dörd bitum çəninin quraşdırılması və əlavə 200 tonluq anbarın yaradılması istiqamətində isə işlər davam etdirilir. 21 nəfərin işlə təmin olunduğu zavod kompüter sistemi vasitəsilə avtomatik olaraq idarə edilir.



Hazırda muxtar respublikamızda yol tikinti işləri sürətlə davam etdirilir. Hər il muxtar respublikada 100 kilometrlərlə yeni avtomobil yolları çəkilir. Paytaxt Naxçıvan şəhərinin yenidən qurulan prospekt və küçələri ilə yanaşı, Culfa-Ordubad magistral avtomobil yolu və Ordubad rayonunun Dəstə kənd avtomobil yollarında işlərin yüksək səviyyədə aparılması üçün keyfiyyətli asfalt-beton məmulatına həmişə ehtiyac vardır. Qum və çınqıl ehtiyatları ilə zəngin olan Naxçıvanda belə asfalt istehsal edən zavodun tikilməsi texniki-iqtisadi cəhətdən özünü doğruldan layihələrdəndir. Belə ki, fəaliyyət göstərdiyi müddətdə zavodda 35 min tona yaxın hazır asfalt istehsal olunaraq tikinti yerlərinə göndərilib. Yollarımıza qara örtük döşəndikcə sürücülərin, piyadaların rahatlığı daha da artır, şəhər və kəndlərimizin siması daha da gözəlləşir. Zavodun kollektivi onlara bəxş olunmuş bu ərməğanı həmişə minnətdarlıqla xatırlayaraq muxtar respublikamızın quruculuq işlərinə öz töhfəsini verməyə çalışacaq.

**Əli CABBAROV**



Muxtar respublikamızda təbiətin insana bəxşişi olan nemətlərin hər birini yetirib-bitirən, bol bar-bəhər verən torpaqları, ayrı-ayrı rayon, kənd əraziləri vardır. Ordubad limonu, əriyi, zoğalı, Şərur şaftalısı, kartofu, pomidoru, Şahbuz badamı, alması, heyvası, Sədərək üzümü ilə tanınır. Gözəl yurdumuzun bütün yaşayış məntəqələrində bu nemətlərdən bol olmasına baxmayaraq, söhbət düşəndə hər birinin əsl ünvanları bunlardır, – deyə söylənilir. Elə Babək rayonunun Aşağı və Yuxarı Buzqov kəndləri də cəvizin məskəni sayılır. Düzdür, Şərurun Havuş, Şahbulaq, Ordubadın Nürgüt, Biləv, Culfanın Ləkətağ, Boyəhməd, Şahbuzun Aşağı və Yuxarı Qışlaq, Qızıl Qışlaq, Kükü, Keçili kəndlərində də cəviz ağacları saysız-hesabsızdır. Lakin Buzqov cəvizi dad-tamına, məhsuldarlığına, keyfiyyətinə görə bənzərsizdir.

Ümumilikdə, muxtar respublikamız həm də ölkəmizdə əl-əl axtarılan əsl cəvizin vətəni hesab olunur və burada cəviz ağaclarına həmişə xüsusi qayğı və nəvazişlə yanaşılıb.

Hər qarış torpağı bar-bərəkət dolu diyarımızda şəfa mənbəyi olan bu nemətlərin çoxaldılması məqsədilə meyvəçilik son illər sürətlə inkişaf etdirilir. Ardıcıl şəkildə həyata keçirilən dövlət proqramlarının icrası minlərlə hektar sahədə meyvə bağlarının salınması ilə nəticələnib. Belə bağlar arasında muxtar respublikamızın iqlim xüsusiyyətləri nəzərə alınaraq əkilən qərzəkli meyvələrdən olan cəviz də üstünlük təşkil edir. Kənd adamlarının hər il həyətlərində, pay torpaqlarında yaratdıqları cəvizliklərdən əlavə, muxtar respublikamızda son illər iməciliklər yolu ilə də hektarlarla cəviz bağı salınıb. Bu nemətə olan tələbat ildən-ilə artır. Çünki burada fəaliyyət göstərən şirniyyat istehsalı müəssisələri cəvizin yaxşı alıcılarıdır.

Ötən həftə keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında muxtar respublikamızın ayrı-ayrı bölgələrindən gətirilən cəviz, ondan hazırlanan məhsullar, xüsusilə cəviz mürəbbəsinin üstünlük təşkil etməsi və festivalın ilk günü artıq bu məhsulların hamısının satılması muxtar respublikamıza gələn qonaqların da Naxçıvan cəvizi barədə məlumatlı olmasının göstəricisidir.



Payızın məhsul yığımı dövründə yolumuzu ömrünün ikinci əsrini yaşayan cəviz ağaclarına hər addımda rast gələ biləcəyimiz Babəkin Aşağı və Yuxarı Buzqov, Şahbuzun Aşağı və Yuxarı Qışlaq kəndlərindən saldıq. Rayon mərkəzindən bu kəndlərə uzanan düz, hamar asfalt yollar mənzil başındakı abad yerlərdən xəbər verir. Elə kəndlərə daxil olarkən ucqar yurd yerlərimizdə görünən qurulub-yaradılanlar da bu düşünülənləri təsdiqləyir.

### "Bir cəviz ağacı bir inəkdir"

Yuxarı Qışlaqda həyətində gəzə-gəzə söhbətləşdiyimiz 90 yaşlı Səkinə nənə belə deyir: – Bu kənddə bir deyim var: "Bir cəviz ağacı bir inəkdir". Bir inək bir ildə nə qədər gəlir gətirirsə, bir cəviz ağacı da sahibinə bir o qədər xeyir verir. Bineyi-qədimdən məhsulumuzu həm bazarlara çıxarmışıq, həm də qapımızdaca satmışıq. Hər həftənin şənbə günü Naxçıvan şəhərində kənd təsərrüfatı məhsullarının satış yarmarkası keçirilir. Uşaqlar neçə illərdir ki, cəvizi o yarmarkaya aparır, yaxşı da satırlar. Bu kənddə həyətində cəviz ağacı olmayan ev tapa bilməzsən. Hamı da cəvizdən yaxşı gəlir götürür.

Mən bu evə gəlin gələndə burada bax o iki cəviz ağacı var idi. Əlini uzadaraq qocaman ağacları göstərir və deyir:

*Əzizim, yüzyaşlıdır,*
*Bir əsrin yaddaşıdır.*
*Gördüyün o cəvizlər*
*Yüzyaşlı yurd daşıdır.*

Mən onları gəlib elə burada görmüşəm. Rəhmətlik qayınatam deyərdi ki, o cəvizləri bu evi binə edəndə öz əllərimlə əkmişəm. Bunların yaşı 100-ü çoxdan keçmiş olar. Həyətin kənarındakı böyük cəvizliyə çatanda gördüyünüz bu 30-dan artıq cəviz ağacını isə özüm əkmişəm, çaydan su daşıyıb diblərinə tökmüşəm. İndi hamısı bar üstündədir. Rəhmətlik qayınanam bu cəviz ağaclarının tutması üçün cəfakeşliyimi görüb məni əzizləyərək deyərdi:

*Əzizim, cəviz əkən,*
*Ting salıb, cəviz əkən.*
*Görüm yüz yaşayasan,*
*Səni, a cəviz əkən.*

Mən də şirindilliliyi elə qayınanamdan öyrənmişəm. Cəviz çırpılan vaxt qızlarımı başıma yığıb, ay bala, yağışı var, sazağı var, hər işi qoyun kənara, gəlin bunu yerdən götürək, – deyərdim. Qızlar axşam xınalanmış əllərini göstərib: – Ay ana, bax – deyəndə,

*Gözəlim xına yaxıb,*
*Əlinə xına yaxıb.*
*Cəvizin qabıqları,*
*Balama xına yaxıb,*

– deyib onları əzizləyirdim ki, sabahı gün yenə mənə kömək eləsinlər".

Yuxarı qışlaqlı 80 yaşlı İsmayıl baba nağıl edir ki, cəvizin "daş cəviz" adlanan növünün ağacı həm də mebel istehsalında qiymətli və keyfiyyətli material hesab olunur. Yadımdadır, 1980-ci illərin axırları, 1990-cı illərin əvvəlləri idi. Cəviz ağaclarını almaq üçün kəndə bir dəstə adam gəlmişdi. Qapı-qapı düşüb camaat arasında təbliğat aparır, təklif edirdilər ki,



cəviz ağaclarını kəsib onlara satsınlar. Bir aya yaxın gəlib-getdilər. Amma heç bir faydası olmadı. Biz ağsaqqallar yığışıb onlara dedik ki, gedin, gəlirinizi başqa yerlərdə axtarın. Bura qədimdən cəvizin məskəni, cəvizsə, bu yerin insanlarının ruzisi, dolanışıq mənbəyi olub. Bunları kəsib, sizə satıb bir il dolanarıq, hansı ki onlar bizə hər il bir neçə min manat gəlir gətirir. Biz qolumuzu baltanın altına qoyarıq, amma o ağacların kəsilməsini ağlımıza belə, gətirmərik!

İsmayıl baba cəvizin Şahbuzun əksər kəndlərində yaşayan insanların ta qədimdən ruzi mənbəyi olması ilə yanaşı, cəviz ağacına bizim ellərdə müqəddəs ağac kimi baxıldığından da danışdı. Hələ rayonun Qızıl Qışlaq kəndində "Cəviz piri" adlı müqəddəs ocağın olduğunu da bildirdi. Dedi ki, cəvizin müqəddəsliyi bir də ondadır ki, bu ağac suyu özünə çəkir, onun ətrafında daim nəmlik olur, hətta bulaq da yaranır.

### Cəviz toxumacarlığı

Cəvizin çoxaldılması üçün toxumacarlıq yaradılmalıdır ki, bunun da ən yaxşı bilicilərı bu kəndlərdədir. Biz Yuxarı Qışlaqda olarkən kənddə bu işin ustasının Cəlal əmi olduğunu dedilər. Evlərinə getdik, təsadüfən Cəlal əmi həyətində yeni toxumacarlıq yaradırdı. Onunla söhbət edə-edə bu işlə biz də tanış olduq. Öyrəndik ki, cəviz çırpılıb yığılandan sonra qabıqdan çıxarılır, sərilib qurudulur. Sonra onların içərisindən ən böyükləri və sağlam olanları seçilib əvvəlcədən qazılıb hazırlanmış torpağa miz tərəfləri yuxarı olmaq şərtilə basdırılır. Əvvəl bir-iki dəfə su verilir, sonra hava soyuduğuna görə onlar nəmliyi torpaqdan götürürlər. Yazda baxırsan ki, cücəriblər. Boyları bir metrə çatanda ya yazda, ya da payızda çıxarıb istədiyin yerə əkirsən.

Cəlal əmi deyir ki, cəviz bir qədər sulu yerləri sevir, daşlı-çınqıllı olmayan yerlərdə daha yaxşı inkişaf edir, 10 il ərzində bar verir. Kənddə cəvizin bərk qabıq, nazik qabıq, kətanköynək, badamı, daş, yağlı, ləpəlik sortlarının olduğunu söyləyən Cəlal əmi, onlardan hansının toxumacarlığını yaratsan, onun da tingini əldə edərsən, – dedi.

Elə rayonda son illər salınan cəviz bağlarına əkilən tinglər də bu kəndlərdəki toxumacarlıqlarda yetişdirilib.

### Cəviz mürəbbəsi, çöçəsi, cəviz halvası və dürməyi

Yuxarı buzqovlu 80 yaşlı Zeynəb nənə isə bizə cəvizin faydalarından, istifadəsindən danışır. O deyir: – Cəvizi ərik dənəsi böyüklükdə ikən – təzəcə yetişmək istəyəndə hər gün səhər vaxtı 1 ədəd olmaqla, 10 gün udmaq el arasında "zob" deyilən xəstəliyin müalicəsində əvəzsizdir. Cəviz ləpəsinin damarlardakı artıq yağların təmizlənməsində, ürək-damar xəstəliklərinin müalicəsində, uşaqların zehni inkişafında, sümüklərin güclənməsində böyük təsiri var. Hər gün 40 qram cəviz yeyən, dərd-bəla sizlərdən uzaq, ürək-damar xəstəliyi nədir bilməz. Yarpaqları ağız yaralarına, bağırsaq iltihablarına, ayaqda göbələk xəstəliyinə məlhəmdir.

Bu nemətdən mətbəximizdə də çox istifadə olunur. Hələ yetişməmiş, içi bərkiməmiş (buna el arasında "sümükləşməmiş" də deyirlər) cəvizdən bişirilən mürəbbə süfrələrimizin bəzəyidir. Bu mürəbbə 10 günə başa gəlir, onu hər qız-gəlin bişirə bilməz. Hazırlanması çox zəhmət və bacarıq tələb edən bu mürəbbə evimizə gələn qonaq üçün açdığımız süfrənin "şahı"dır.

Cəvizlə bişirilən çox sayda şirniyyatlarımız var ki, bunların başında Naxçıvanın içli çöçəsi dayanır. Kənddə çöçə bişirmək üçün kiçik təndiri olmayan həyət yoxdur. Cəviz çırpılandan 10-20 gün sonra (yaş cəviz quruyanda) bütün evlərdə təzə cəvizlə içli çöçə bişirilir. İllərdir, bunu bir inanc kimi qəbul etmişik ki, cəvizin barını belə, "əzizləyəndə" gələn il daha çox məhsul verir. İl uzunu, xüsusilə də ən əziz bayramımız Novruzda çərəz kimi süfrəyə qoymaqla yanaşı, cəvizdən milli şirniyyatlarımız olan şəkərbura və paxlava bişirilməsində də istifadə olunur. Aşağı və Yuxarı Buzqov kəndlərinin hər ikisində qış uzunu evlərdə nabat bişirilir – cəvizli nabat. Məncə, çay bu nabat qədər başqa heç nə ilə ləzzətli ola bilməz. Bu kəndlərin hər ikisində belə bir adət də var: Elə ki Ramazan ayının başlanmasına bir həftə qaldı, oruc tutulan bütün evlərdə cəvizli halva çalınar. Çox ləzzətli və tutumlu olan bu halva ay uzunu qızdırılıb süfrəyə qoyulur. Cəvizdən zirətovda, plovun qarasında da çox istifadə edirik.

Zeynəb nənə çoxlarımıza tanış olan cəviz dürməyi barədə də maraqlı söhbət edərək dedi ki, ümumiyyətlə, dürməyi nədən tutursan tut, o, dadlı olur. Amma etiraf edək ki, cəviz heç bir şəkildə dürməkdəki qədər dadlı olmur. İkinci cahan müharibəsi illərində günümüz kolxozda sahələrdə işləməklə keçirdi. Nə vardı yeməyə? Aclıq baş alıb gedirdi. Dizimizə qüvvəti, gözümüzə nuru, inanın ki, cəviz dürməyi verirdi. Nə yaxşı ki bu ağaclar var imiş, bunlar bizim yaxşı günümüzün də, pis günümüzün də şahidləridir. Elə o vaxt-bu vaxt cəviz dürməyi yeyilir bu kəndlərdə.

Aşağı buzqovlu 75 yaşlı Nazlı nənə deyir ki, bizdə belə bir inanc da var ki, gərək bu cəviz çırpımından gələn ildəkinədək kisənin dibində bir qoşa ovuc cəviz qala, yoxsa onun bərəkəti qaçar, gələn il bar verməz. Bu inanca görə, kəndin ağbirçəklərindən belə bir deyim də qalıb: "O qadına qadın deyərik ki, ilin hər vədəsində evində cəviz saxlaya, birdən vacib lazım olar". Bu, hər adətə çevrilib, indi nə vaxt hansı qapıya getsən, cəviz tapa bilərsən.

Nazlı nənə bu kəndlərdə həm xınayaxdı mərasimlərində, həm də saça qoymaq üçün xınanın cəviz yarpaqlarından dəmlənmiş su ilə hazırlanmasından da danışaraq dedi ki, bu xınanın çox gözəl rəngi olur. Həm də saçlara və əl-ayağa faydası çoxdur. Cəviz ləpələrinin arasındakı pərdənin dəmləməsinin isə bir çox xəstəliklərlə yanaşı, saç tökülməsinin də qarşısını alan dəyərli vasitə olduğunu söylədi.

### Cəvizi qırmızılı, qəhvəyi yelənli xalçalar

Aşağı və Yuxarı Qışlaq kəndləri həm də qədim xalçaçılıq sənətinin yaşadıldığı yerlərdir. Bu kəndlərin hər bir evini əlləri zərgər olan qadınların incə ruhlarından süzülərək ilmə-ilmə naxışlara çevrilən yun xalçalar bəzəyir. Əzizlərinin, övladlarının, nəvələrinin adlarını da həkk etdikləri həmin xalçaların ipliyini qışlaqlılar həyətlərində saxladıqları qoyun yunundan, rəngləri isə dağın-daşın gül-çiçəyindən, bir də ki cəvizdən alırlar. Aşağı Qışlaq kəndində yaxşı tanınan xalça ustası Südabə xanım deyir: – Evlərimizin bəzəyi olan xalçaların yelən hissəsinə tünd rəngli iplərdən istifadə olunur. Bunu da illər uzunu cəvizdən almışıq. Cəvizin atılan heç bir hissəsi yoxdur. Qabığından, qobuğundan, yarpağından ip boyamaqla müxtəlif – açıq, tünd-qəhvəyi, cəvizi qırmızı, ona başqa bitkilərdən əlavə etdikdə isə tünd-qırmızı, qara rəngləri almaq olur. Bu iplərlə toxunan xalçalar köhnəlmək, solmaq bilməz, yuduqca rəngləri daha da parlaqlaşar, gözəlləşər. O, evindəki 50-60 il bundan əvvəl toxunan xalçaları açıb bizə göstərdi. Həqiqətən, onlar elə bil indi toxunublar. Südabə xanım deyir ki, əvvəllər ağ yun ipdən toxuduğumuz köynəklərin, corabların boyanmasında da cəviz qabığından, qobuğundan istifadə edərdik. Həmin köynəklər, corablar geyinilməkdən yırtılardı, amma rəngi solmazdı, deyərdin ki, indicə boyanıb.

Cəvizin yarpaqlarından isə indi də həmin xalçaları yayda bükərkən istifadə edirik. Tamamilə yun olan bu xalçaları güvədən yalnız cəviz yarpaqlarının kəskin iyinin hesabına qorumaq mümkündür.

Söhbətimizin bu yerində Südabə xanımın oğlu Elmar yerdən qar gedəndən sonra, həm də cəvizin evlərdən azaldığı vaxt kənd uşaqlarının cəviz oyunu oynadıqlarından da danışdı. O deyir ki, cəvizlər dikdən üzüenişə diyirləndirilir, kimin cəvizləri aşağıdakı cəvizlərə toxunarsa, o, bu oyunu udar. Elmar bizi ərik odunu və cəviz qabıqlarının qarışığı ilə çırtaçırtla qaynatdığı ləzzətli, ətirli samovar çayına da qonaq etdi.

### Uzunömürlü insanlar, insan ömürlü cəviz ağacları...

Aşağı və Yuxarı Buzqov kimi, Aşağı və Yuxarı Qışlaq kəndləri həm də uzunömürlülər diyarıdır. Bu kəndlərin hər birində gövdələrini 3-4 nəfərin dövrələyə bilmədiyi, bir-birinə boy verib, çiyin-çiyinə sıralanan cəviz ağaclarına baxarkən insan düşüncələrə dalır: Zirvəsi buludlarla öpüşən, dağlara pərçim olmuş sıldırım, şiş, papaq qayalar sanki buradakı insanlara öz uzun ömürlərin bəxş etmişlər. Bu insanlar isə ting salıb cəviz əkərkən sanki bu ağaclara öz ömürlərindən pay vermiş, onları özlərinə ömürlük ayrılmaz yoldaş, sirdaş etmişlər. Özü öz sirrini açan bu mənzərələr adama sakitcə bu sözləri "pıçıldayır": Uzunömürlü insanlar, insan ömürlü cəviz ağacları...

Mətanət MƏMMƏDOVA

## Beynəlxalq Tolerantlıq Günü qeyd olunub

**_Naxçıvan şəhərindəki Həzrəti-Zəhra məscidində 16 noyabr – Beynəlxalq Tolerantlıq Günü münasibətilə tədbir keçirilib._**



Muxtar respublikada fəaliyyət göstərən dini icma sədrlərinin, din xadimlərinin və “Naxçıvan” Universitetinin Dinşünaslıq ixtisasında təhsil alan tələbələrin iştirak etdiyi tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev açaraq bildirib ki, 1996-cı ildən BMT-yə üzv ölkələr Beynəlxalq Tolerantlıq Gününü qeyd edirlər. Burada əsas məqsəd dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır. Tolerantlıq insan azadlıqları və hüquqlarının təsdiqi, plüralizm və demokratiya əsasında formalaşır. Onun üçün də burada irqçilik, ksenofobiya, dini dözümsüzlük, terror və ekstremizmin qəbul edilməsi yolverilməzdir.

Vurğulanıb ki, bu gün Azərbaycan dünyada həm də tolerantlıq örnəyi kimi tanınır. Ulu öndər Heydər Əliyevin tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlərin uğurla davam etdirilməsi nəticəsində ölkəmiz müxtəlif milli və mədəni dəyərlərin qovuşma məstəvisinə çevrilib. Azərbaycan indi dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, xalqlar, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində ölkədə tolerant düşüncə artıq tam bərqərar olub. Ölkədə formalaşmış tolerantlıq və dözümlülük Əsas Qanunda da öz əksini tapıb. Konstitusiyanın 48-ci maddəsinə əsasən hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə, dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur oluna bilməz.

Dövlətin gücünü əhalinin çoxmillətli olmasında, müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgə yaşayışında görən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün dünyaya göstərir ki, tolerantlıq Azərbaycan xalqının ruhundadır.

Tədbirdə din xadimlərindən Nicat Rzayev, Allahverdi Ocaqquliyev çıxış edərək bildiriblər ki, İslama görə, tolerantlıq müxtəlif inanclı insanlar arasında bir körpüdür. Hazırda ölkəmizdə müsəlmanlarla yanaşı, pravoslav, Roma-katolik konfessiyaları, protestantlığın müxtəlif cərəyanlarının, eləcə də digər dinlərin mənsubları birlikdə tolerantlıq, əmin-amanlıq şəraitində yaşayır və öz dini ibadətlərini rahatlıqla yerinə yetirirlər. Muxtar respublikamızda da insanların öz inanclarına bağlı yaşaması üçün hər cür şərait yaradılıb, burada yüksək tolerant mühit formalaşdırılıb. Qədim diyarımızda məscidlərimiz təmir olunub, yenidən qurulub, müxtəlif dini mərasimlərin yüksək səviyyədə qeyd edilməsi üçün hərtərəfli şərait yaradılıb.

**Güntac ŞAHMƏMMƏDLİ**

*Bu günlərdə Naxçıvan Müəllimlər İnstitutunda AMEA-nın həqiqi üzvü Tariyel Talıbov və institutun Ümumi fənlər kafedrasının baş müəllimi Lamiyə Quliyevanın birgə müəllifliyi ilə yenicə işıq üzü görmüş “Naxçıvan Muxtar Respublikasının florası – Papaveraceae Juss” kitabının təqdimatı keçirilib.*

## Kitab təqdimatı keçirilib



Tədbiri giriş sözü ilə açan institutun rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev bildirib ki, ölkəmizdə fəaliyyət göstərən akademiya sisteminin qurumları ilə ali təhsil müəssisələrinin elmi əməkdaşlığı, yeni elmi biliklərin tədrisə daxil edilməsi və cari tədris ilində institutda Biologiya müəllimliyi ixtisası üzrə kadr hazırlığına başlanılması baxımından yeni nəşr mühüm əhəmiyyət kəsb edir. Monoqrafiyanın həmmüəllifi, institutun baş müəllimi Lamiyə Quliyeva həm də bu sahədə fundamental elmi-tədqiqat aparıb.

Tədbirdə Ümumi fənlər kafedrasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Asif Axundovun “Naxçıvan Muxtar Respublikasında laləkimilərin tədqiqinə sanballı töhfə”, AMEA Naxçıvan Bölməsinin Nəbatat şöbəsinin böyük elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Əfruz Nəsirovanın “Naxçıvan Muxtar Respublikasının florası – Papaveraceae Juss” kitabının elmi-praktik əhəmiyyəti” mövzularında məruzələri dinlənilib.

Məruzə və çıxışlardan sonra müəlliflərdən Lamiyə Quliyeva muxtar respublikamızda, onun elm və təhsil müəssisələrində elmi tədqiqatların aparılması, əldə olunmuş biliklərin təhsil müəssisələrində tədrisə tətbiq edilməsi üçün yaradılmış şəraitə, bu istiqamətdə çalışan mütəxəssislərə göstərilən diqqət və qayğıya görə müəlliflər adından dərin minnətdarlığını bildirib. O, tələbələrin suallarını cavablandırıb, yeni nəşrdən tədbir iştirakçılarına və institut kitabxanasına hədiyyə edib.

Təqdimatdan sonra əsərin yazılmasında istifadə edilmiş, tədqiqatçılar tərəfindən hazırlanmış çoxsaylı herbarilərə baxış keçirilib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Futbol üzrə muxtar respublika çempionatında ilk dövrəyə yekun vurulub



*Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının muxtar respublikanın Gənclər və İdman, Təhsil nazirlikləri ilə razılaşdırılmış təqvim planına uyğun olaraq keçirilən futbol üzrə XVII muxtar respublika çempionatının ilk dövrəsinə yekun vurulub.*

Cari mövsümə iddialı başlayan “Araz-Naxçıvan” futbol komandası ilk dövrəni lider kimi başa vurub. “Qırmızı-ağlar” keçirdiyi 8 görüşdə yalnız bir dəfə heç-heçə edib. Son turda isə Naxçıvan təmsilçisi yaxın izləyicisi “Arpaçay” komandasının səfərdə məğlub etməyi bacarıb. Çempionatın ilk dövrəsində məğlubiyyət üzü görməyən yeganə komanda da məhz “Araz-Naxçıvan”dır.

Turnir cədvəlinin ikinci pilləsində qərarlaşan Şərurun “Arpaçay” komandası 7-ci turda “Araz-Naxçıvan” məğlubiyyətindən sonra səfərdə Sədərəyin eyniadlı komandasının qonağı olub. Çətin keçən görüş Şərur təmsilçisinin 7:5 hesablı qələbəsi ilə başa çatıb. Bu qələbə, eyni zamanda “Arpaçay” komandasını liderə bir qədər yaxınlaşdırıb.

Hazırda turnir cədvəlinin üçüncü pilləsində qərarlaşan Naxçıvan Dövlət Universitetinin komandası isə son iki turda sərgilədiyi uğursuz oyunlarla diqqəti cəlb edib. Belə ki, tələbələr 7-ci turda “Sədərək” komandasına məğlub olub – 1:3. Son turda isə Culfanın “Əlincə” komandasının qonağı olan universitet təmsilçisi məğlubiyyətdən yaxa qurtara bilməyib – 2:0. Lakin Culfa təmsilçisinə çempionatın reqlamentini pozduğu üçün (qeydiyyatı olmayan futbolçuları oynatdığına görə) texniki məğlubiyyət verilib – 0:3. Cari mövsümdə diqqəti üzərinə müsbət yöndə cəlb edən digər komanda Sədərək təmsilçisidir. Belə ki, “Sədərək” komandası digər mövsümlərlə müqayisədə daha baxımlı oyun sərgiləyir və bunun nəticəsidir ki, ilk dövrəni 4-cü pillədə başa vurub.

Mövsümün ən uğursuz komandaları isə “Batabat” və “Dübəndi”dir. Düzdür, Şahbuz təmsilçisi son turda qələbə qazanmağa müvəffəq olub. Ancaq Ordubad komandası 8 tur ərzində aktivinə bir xal belə, yaza bilməyib. Ümumiyyətlə, “Dübəndi” komandası ilk dövrədə rəqib qapılarından ən az qol keçirən komandadır – 5 top. Ən çox top buraxan komanda isə “Batabat”dır – 34 top.

İlk dövrədə ən çox qol vuran komanda “Arpaçay” (34 top), ən az qol buraxan komanda isə “Araz-Naxçıvan”dır (5 top). İlk yarının ən kobud komandası adını isə NDU “qazanıb” – 13 sarı, 3 qırmızı vərəqə. Onu bu siyahıda “Babək” (16 sarı, 2 qırmızı), “Əlincə” (13 sarı, 1 qırmızı), “Kəngərli” (10 sarı, 1 qırmızı) və “Arpaçay” (9 sarı, 1 qırmızı) komandaları izləyir. Bu sahədə feyr-pley qaydalarına riayət edən komanda isə “Dübəndi”dir – 3 sarı vərəqə.

Bombardirlər cədvəlinə gəlincə, siyahıya “Arpaçay” komandasının hücumçusu İbrahim Əliyev başçılıq edir. Onun aktivində 13 qol var. “Sədərək” komandasının hücumçusu Vəli İsmayılzadə və “Araz-Naxçıvan”ın forvardı Vüsal Əliyev isə müvafiq olaraq 8 və 7 dəfə rəqib qapıçıları məyus ediblər. Tağı Seyidov (Araz-Naxçıvan) və Hüseyn Əliyev (Arpaçay) ilk dövrədə 6 dəfə fərqləniblər.

***VII tur***

“Sədərək” (Sədərək) – Naxçıvan Dövlət Universiteti 3:1

“Kəngərli” (Kəngərli) – “Dübəndi” (Ordubad) 3:0

“Əlincə” (Culfa) – “Batabat” (Şahbuz) 5:0

“Araz-Naxçıvan” – “Babək” (Babək) 4:3

***VIII tur***

“Sədərək” – “Arpaçay” 5:7

“Əlincə” – NDU 0:3 (texniki məğlubiyyət)

“Batabat” – “Dübəndi” 3:0

“Kəngərli” – “Babək” 4:1

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 8 | 7 | 1 | 0 | 29-5 | 22 |
| 2. | Arpaçay | 8 | 6 | 1 | 1 | 34-18 | 19 |
| 3. | NDU | 8 | 4 | 3 | 1 | 17-8 | 15 |
| 4. | Sədərək | 8 | 4 | 0 | 4 | 20-26 | 12 |
| 5. | Kəngərli | 8 | 3 | 2 | 3 | 18-17 | 11 |
| 6. | Babək | 8 | 3 | 1 | 4 | 20-16 | 10 |
| 7. | Əlincə | 8 | 3 | 1 | 4 | 19-21 | 10 |
| 8. | Batabat | 8 | 1 | 1 | 6 | 13-34 | 4 |
| 9. | Dübəndi | 8 | 0 | 0 | 8 | 5-30 | 0 |

***Qeyd:*** “S” – sıra, “O” – oyun, “Q” – qələbə, “H” – heç-heçə, “M” – məğlubiyyət, “T/F” – top fərqi, “X” – xal.

**Ceyhun MƏMMƏDOV**

## Müsabiqə qalibləri müəyyənləşib



*Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə ali və orta ixtisas təhsili müəssisələrinin şən və hazırcavablar klubları arasında müsabiqə keçirilib.*

Müsabiqədə hər təhsil müəssisəsindən bir komanda iştirak edib və hər komanda 15 dəqiqəlik bir səhnəcik nümayiş etdirib. Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar daha çox gənclərlə bağlı mövzulara üstünlük verilib. Müsabiqə qaliblərini müəyyənləşdirmək üçün ali və orta ixtisas təhsili müəssisələrinin hər birindən 1 nəfər müəllim olmaqla, 5 üzvdən ibarət münsiflər heyəti müəyyənləşdirilib.

Sonda münsiflər heyətinin qərarı ilə Naxçıvan Dövlət Universitetinin “Karvan” komandası qalib adını qazanıb. Naxçıvan Dövlət Texniki Kollecinin “Güc birlikdədir” və Naxçıvan Müəllimlər İnstitutunun “Təbəssüm” komandaları ikinci və üçüncü yerlərə layiq görülüblər.

## Karate-do üzrə yoldaşlıq görüşü

*Ordubad rayon 3 nömrəli tam orta məktəbin idman zalında Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə qızlardan ibarət “Naxçıvan”, “Ordubad” və “Şərur” komandaları arasında karate-do üzrə yoldaşlıq görüşü keçirilib.*



Yoldaşlıq görüşünü keçirməkdə məqsəd karate-do idman növünü yeniyetmə və gənc qızlar arasında təbliğ etməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən görüşdə 60 qız idmançı iştirak edib. 6 yaş qrupunda 10 çəki dərəcəsi üzrə təşkil edilən görüş beynəlxalq qaydalar əsasında keçirilib.

Yekun nəticəyə əsasən 6-7 yaş qrupunda Zəhra Əli (-20 kiloqram, Naxçıvan), Ayşən Mehbalılı (+25 kiloqram, Ordubad), 8-9 yaş qrupunda Aminə Novruzzadə (-35 kiloqram, Naxçıvan), Nərgiz İsmayılova (+35 kiloqram, Naxçıvan), 10-11 yaş qrupunda Ayan Məmmədova (-40 kiloqram, Naxçıvan), 12-13 yaş qrupunda Sevgi Məmmədova (-42 kiloqram, Naxçıvan), Ulduz Hümbətzadə (-47 kiloqram, Naxçıvan), 14-15 yaş qrupunda Fatimə Qasımova (+54 kiloqram, Naxçıvan), Səmra Məmmədli (-47 kiloqram, Naxçıvan) və 16-17 yaş qrupunda Gülnur Abdullayeva (+54 kiloqram, Ordubad) bütün görüşləri qalib kimi başa vuraraq birinci yerlərə layiq görülüblər.

Komanda hesabında isə “Naxçıvan” komandası qalib olub. “Ordubad” və “Şərur” komandaları digər yerlərlə kifayətləniblər.

Sonda hər yaş qrupunda yer tutan idmançılara təşkilatçıların diplom və medalları təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Məmmədov Ələsgər Hidayət oğlunun adına olan torpağın mülkiyyətə verilməsinə dair JN-190 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 833**